# “METAK” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Hazırlanmış İlkin Maliyyə Vəziyyəti haqqında Hesabat və Müstəqil Auditorların Rəyi**

1 yanvar 2018-ci il tarixinə

# "METAK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 1 YANVAR 2018-Cİ İL TARİXİNƏ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI ƏSASINDA HAZIRLANMIŞ İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABATIN HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 1 YANVAR 2018-Cİ İL TARİXİNƏ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI ƏSASINDA HAZIRLANMIŞ İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT: | |
| İlkin maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| İlkin maliyyə vəziyyəti haqqında hesabat üzrə qeydlər | 6-34 |

## MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARI ƏSASINDA İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABATIN HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

## 1 YANVAR 2018-Cİ İL TARİXİNƏ

Bu bəyannamə, "Metak" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 1 yanvar 2018-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış ilkin maliyyə hesabatlarının 31 dekabr 2019-cu il tarixinə MHBS əsasında maliyyə hesabatlarını ilk dəfə hazırlamaq məqsədilə, standartlar və şərhlər haqqında effektiv olması gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS əsasında MHBS-nin necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Hesabatların uyğunluğunun bəyanı" üzrə MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabata uyğun hazırlanması üzrə məsuliyyət daşıyır.

MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-ə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabatda bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın MHBS-ə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

1 yanvar 2018-ci il tarixinə MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqnda hesabat 10 sentyabr 2018-ci il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyətinin adından:**

**Cənab Aydın Kərimov**
**Baş direktor**

10 sentyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

**Cənab Fuad Zülfüqarov**
**Maliyyə direktoru**

10 sentyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

BAKER TILLY
AZERBAIJAN

Audit, Tax and Consulting
Demirchi Tower, 16th floor
Khojaly Avenue, 37
AZ1025, Baku
Azerbaijan

T: + 994 (12) 404 7 666
F: + 994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Metak" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyə:

***Rəy***

Biz "Metak" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 1 yanvar 2018-ci il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartı ("MHBS") əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabatın, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Bizim fikrimizcə, 1 yanvar 2018-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış ilkin maliyyə hesabatının 31 dekabr 2019-cu il tarixinə MHBS əsasında maliyyə hesabatlarını ilk dəfə hazırlamaq məqsədilə, standartlar və şərhlər haqqında effektiv olması gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS əsasında, MHBS-nin necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Hesabatların uyğunluğunun bəyanı" üzrə MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatların hazırlanması qaydalarına uyğun şəkildə hazırlanmışdır.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***İzahedici Paraqraf***

Biz, MHBS-ə uyğun tərtib edilmiş ilkin maliyyə vəziyyəti haqqında hesabata əlavə edilmiş 2 saylı Qeydə diqqət yetiririk. Bu Qeyd MHBS-ə uyğun tərtib edilmiş ilkin maliyyə vəziyyəti haqqında hesabatına MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarının tam dəstini təşkil etməzdən əvvəl düzəlişlərin edilməsi tələb oluna biləcəyi ehtimalını izah edir. Bundan əlavə, biz MHBS əsasında müqayisəli maliyyə məlumatları və izahedici paraqraflar ilə birlikdə maliyyə hesabatlarının yalnız tam dəstinin Cəmiyyətin maliyyə vəziyyətini, əməliyyatlar və pul vəsaitlərinin axınlarını MHBS əsasında düzgün təqdim edəcəyi faktına da diqqət yetiririk. Bu məsələ ilə bağlı rəyimiz şərti deyildir.

***MHBS-ə uyğun Hazırlanmış İlkin Maliyyə Vəziyyəti Haqqında Hesabata görə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik 1 yanvar 2018-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyəti əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun ilkin maliyyə vəziyyəti haqqında hesabatın 31 dekabr 2019-cu il tarixinə MHBS əsasında maliyyə hesabatlarını ilk dəfə hazırlanarkən, standartlar və şərhlər haqqında effektiv olması gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS əsasında MHBS-nin necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Hesabatların uyğunluğunun bəyanı" üzrə MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabat ilə uyğun hazırlanması və təqdim olunması üzrə məsuliyyət daşıyır. Rəhbərlik eyni zamanda ilkin maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya səhvlərdən qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

MHBS-ə uyğun hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat tərtib edildikdə, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***MHBS-ə uyğun Hazırlanmış İlkin Maliyyə Vəziyyəti Haqqında Hesabatın Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz MHBS-ə uyğun tərtib edilmiş ilkin maliyyə vəziyyəti haqqında hesabatda bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- MHBS-ə uyğun tərtib edilmiş ilkin maliyyə vəziyyəti haqqında hesabatda saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda ilkin maliyyə vəziyyəti haqqında hesabatdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, ilkin maliyyə vəziyyəti haqqında hesabatın ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin ilkin maliyyə vəziyyəti haqqında hesabatda ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslər digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

10 sentyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

## "METAK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**1 YANVAR 2018-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 1 yanvar 2018-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Cari aktivlər:** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 2,976,782 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 8, 22 | 2,224,020 |
| Avans ödənişləri | 9 | 2,770,639 |
| Vergi aktivləri | 10 | 1,326,600 |
| Mal-material ehtiyatları | 11 | 36,946,688 |
| Digər cari aktivlər | 12 | 625,474 |
| **Cəmi cari aktivlər:** | | **46,870,203** |
| **Uzunmüddətli aktivlər:** | | |
| Əmlak, tikili və avadanlıqlar | 13 | 18,999,265 |
| Qeyri-maddi aktivlər | 13 | 330,662 |
| Əmlak, tikinti və avadanlıqlar üzrə ödənilmiş avanslar | 14, 22 | 747,531 |
| **Cəmi uzunmüddətli aktivlər:** | | **20,077,458** |
| **CƏMİ AKTİVLƏR** | | **66,947,661** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| ÖHDƏLİKLƏR: | | |
| **Cari öhdəliklər:** | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 15 | 4,081,773 |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 16, 22 | 13,876,720 |
| Alınmış avanslar | 17 | 1,977,368 |
| Digər cari öhdəliklər | 18 | 110,017 |
| **Cəmi cari öhdəliklər:** | | **20,045,878** |
| **Uzunmüddətli öhdəliklər:** | | |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 19 | 1,210,537 |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 16, 22 | 18,605,648 |
| **Cəmi uzunmüddətli öhdəliklər:** | | **19,816,185** |
| **Cəmi öhdəliklər** | | **39,862,063** |
| KAPİTAL: | | |
| Nizamnamə kapitalı | 20 | 12,364,010 |
| Bölüşdürülməmiş mənfəət | | 14,721,588 |
| **Cəmi kapital** | | **27,085,598** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **66,947,661** |

**İdarə Heyətinin adından:**

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti «MET-AK» • Limited Liability Company • Azerbaijan Republic

**Cənab Aydın Kərimov**
**Baş direktor**

10 sentyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

**Cənab Fuad Zülfüqarov**
**Maliyyə direktoru**

10 sentyabr 2018-ci il
Bakı, Azərbaycan Respublikası

6-34-cü səhifələrdə təqdim edilmiş qeydlər ilkin maliyyə vəziyyəti haqqında hesabatın tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"Metak" MMC ("Cəmiyyət") 1997-ci ildə təsis edilmiş və 10 yanvar 1997-ci il tarixdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən 1500018681 vergi identifikasiya nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyət kimi qeydə alınmışdır. Cəmiyyət Bakı şəhərində yerləşən 8,000 m$^2$ ərazidə plastik borular, boru kəmərləri komponentləri və boru fitinqlərinin istehsalı və daşınması, eləcə də Rusiya Federasiyasından və Ukraynadan idxal olunan tikişsiz, elektrik qaynaqlı polad boru və metallardan döymə məmulatların satışı ilə məşğuldur. Məhsullarının kiçik hissəsi Cəmiyyətin Rusiya Federasiyasındakı filialına ixrac edilir.

Hazırda istehsalatda istifadə edilən xammallar Rusiya Federasiyası, Ukrayna və İrandakı təchizatçılar tərəfindən təmin edilir. Əlavə olaraq, fərdi sifariş əsasında müxtəlif metal konstruksiyaları istehsal olunur.

Cəmiyyət həmçinin Azərbaycan Respublikasının Qusar rayonunda meyvə yetişdirilməsi və ixracını həyata keçirir. Ümumi əkin sahəsi 136 hektar təşkil edir. Yetişdirilən meyvələr alma, armud və nektarin tərkiblidir. Meyvələrin yetişdirilməsi ilkin mərləhədə olduğundan, 2017-ci il üzrə məhsuldarlıq bir o qədər də yüksək olmamışdır.

2017-ci ildə Cəmiyyət Sumqayıt, Balaxanı və Neftçala Sənaye zonalarında yerləşən yeni obyektlərdə də öz istehsalını həyata keçirmişdir.

**Cəmiyyətin hüquqi ünvanı və iş yeri:**

Cəmiyyətin qeydiyyata alınmış ünvanı Nərimanov rayonu, Böyükşor 15A, AZ1029, Bakı, Azərbaycan Respublikasıdır.

Cəmiyyətin səhmdar kapitalı 12,364,010 AZN təşkil edir. Cəmiyyətin sahibi və səhmdarı cənab Alik Kərimovdur.

**Cəmiyyətin əməliyyat mühiti**

Cəmiyyət Azərbaycan Respublikasında fəaliyyət göstərir. İnkişaf etməkdə olan bir bazar olaraq, Azərbaycan Respublikası hazırda işgüzar və tənzimləyici infrastrukturu inkişaf etdirir ki, ümumiyyətlə daha inkişaf etmiş bir bazar iqtisadiyyatda mövcud olan standartlara uyğunluğu təmin etsin.

Moody's təşkilatının məlumatlarına əsasən, 2017-ci ildə 0.1% artımdan sonra real ÜDM artımı əvvəlki illərlə müqayisədə 2018-ci ilin ilk 5 ayı ərzində 1.6% sürətlənmişdir, və iqtisadiyyatın 2018-ci ildə 2%, 2019-cu ildə isə 3% artacağı gözlənilir. Artımın neftin yüksək qiymətləri və qaz ixracının artması ilə dəstəklənməsi ehtimal edilir.

Moody's İnvestors Service-in verdiyi məlumata görə, Azərbaycanın kredit reytinqi (sabit Ba2 səviyyədə) ümumi dövlət borcu və zəmanətlərinin nisbətən yüksək səviyyəsini və bank sektorunun daha həssas olmasını əks etdirir. Bu xüsusiyyətlər neft qiymətlərinin düşməsini və 2014-2016-cı illər ərzində manatın kəskin dəyərsizləşməsinin yaratdığı nəticələrdir.

Əksinə, ölkənin böyük maliyyə aktivləri kredit reytinqinə öz əhəmiyyətli dəstəyini göstərir. Moody's agentliyinin gəldiyi nəticələr, illik "Azərbaycan hökuməti – sabit Ba2" kredit təhlilində bildirilir. Bu kredit təhlilində Azərbaycanın kredit profili nəzərdən keçirilir, iqtisadi dayanıqlıq "zəif" (+); institutsional dayanıqlıq "zəif" (-); fiskal dayanıqlıq "yüksək" və hadisə risklərinə həssaslıq "orta" (+) qiymətləndirilir. Bu Moody's-in Suveren Borc Reytinqi Metodologiyasının əsasını təşkil edən dörd önəmli göstəricidir.

Azərbaycan manatı 2018-ci il ərzində sabit qalmışdır. Lakin, gələcək dövrdə məzənnə üzrə qeyri-müəyyənlik və bank sisteminin davam edən həssaslığı görülən tədbirlərin real iqtisadiyyata ötürülməsinə mane olur.

Azərbaycan iqtisadiyyatı, dünyanın digər yerlərində baş verən bazar böhranlarına və iqtisadi yavaşlamalara qarşı həssasdır. Hökumət bir sıra sabitləşdirmə tədbirləri tətbiq etmiş və mövcud iqtisadi çağırışlara cavab olaraq bank sistemində islahatların və dəstəyin sürətləndirilməsini planlaşdırır.

Rəhbərlik inanır ki, mövcud vəziyyətdə Cəmiyyətin fəaliyyətinin davamlılığını dəstəkləmək üçün müvafiq tədbirlər görür, yuxarıda bəhs edilən sahələrdə gözlənilməz pisləşmənin Cəmiyyətin nəticələrinə və maliyyə vəziyyətinə, hazırda müəyyən edilə bilməyəcək şəkildə mənfi təsir edə biləcəyini nəzərə alır.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik, Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların, Cəmiyyətin maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil.

Azərbaycan həmçinin, tranzit və ticarətin inkişafı üçün regional əlaqələrdən və təşəbbüslərdən də faydalanmağa çalışır. Xüsusilə də, ölkə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin sponsorlarından biridir. Xəzər bölgəsini Türkiyə ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisi 2017-ci ildə tamamlanmışdır. Trans-Anadolu Təbii Qaz Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP), Azərbaycanın Şahdəniz qaz yatağından olan təbii qazı Türkiyə və Avropaya çatdıracaqdır. 2018-ci ildən etibarən ÜDM-in sürətlənməsi sayəsində iqtisadiyyatın genişlənəcəyi gözlənilir, belə ki, dünyanın ən böyük qaz yataqlarından biri olan Şahdəniz qaz yatağının istismarına başlanılır. Kreditlərin məhdud inkişafı və zəif biznes mühitinin olması səbəbindən, qeyri-neft istehsalının daha az templərlə artacağı gözlənilir.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### Giriş

Cəmiyyətin maliyyə ili dekabr ayının sonuncu günündə başa çatır. Əvvəlki illərdə, hesabatlarda Azərbaycan Respublikasının Ümumi Qəbul edilmiş Mühasibat Uçotu Prinsipləri (AZ ÜQMP) əsasında hazırlanmışdır. 2018-ci il 1 yanvar tarixindən etibarən Cəmiyyət maliyyə hesabatlarını, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq təqdim edəcəkdir.

Bu məlumat, hesabat tarixinə dərc olunmuş və 31 dekabr 2019-cu il tarixinə qədər tətbiq olunacağı ehtimal olunan MHBS əsasında hazırlanmışdır. MHBS, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən hazırlanan təlimatlar əsasında, daimi olaraq araşdırma və ya mümkün dəyişikliklikləre məruz qalır. Belə bir dəyişikliyin baş verdiyi halda, MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat yenidən tərtib ediləcəkdir.

**Təqdimatın əsasları**

***İlk dəfə MHBS-in qəbulu***

MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat yuxarıda göstərimiş tarixdə dərc edilmiş və qəbul edilmiş MHBS-ə uyğun olaraq hazırlanmışdır.

MHBS-in ilk dəfə tətbiq edilmə qaydaları 1 saylı "MHBS-nin ilk dəfə tətbiq edilməsi" standartında təsbit olunmuşdur. 1 saylı MHBS təşkilatdan tələb edir ki, MHBS əsasında maliyyə hesabatlarının ilk tam dəsti hesabat tarixində qüvvədə olan hər bir MHBS-ə uyğun gəlsin. Ümumi prinsip olaraq, 1 saylı MHBS hesabat tarixində qüvvədə olan standartları retrospektiv olaraq tətbiq etməyi tələb edir. Lakin, bəzi sahələrdə, xüsusilə də müəyyən əməliyyatların nəticəsi təyin edildikdən sonra retrospektiv tətbiqin, rəhbərliyin qərar qəbul etməsini tələb etdiyi hallarda retrospektiv tətbiq qadağan edilir. Bundan əlavə, MHBS-in tam retrospektiv tətbiqi ilə bağlı bir sıra məhdud güzəştlər, uyğunluq dəyəri maliyyə hesabatlarının istifadəçilərinnə verilən faydalardan artıq olduğu halda verilir. Güzəştlər aşağıdakılara bölünür:

- Məcburi güzəştlər;
- Könüllü güzəştlər.

Cəmiyyət bütün məcburi güzəştləri tətbiq etmişdir. Rəhbərlik tərəfindən seçilmiş əlavə güzəştlərə aşağıdakılar daxildir:

- Şərti ilkin dəyər kimi ədalətli dəyər və ya yenidən qiymətləndirmə – Cəmiyyət, keçid tarixində əmlak, avadanlıq və qeyri-maddi aktivlər üzrə şərti ilkin dəyər olaraq ədalətli dəyər məbləğini istifadə etməyi seçmişdir.

**Fasiləsizlik prinsipi**

MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik, Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə işini davam etdirəcəyini düşünür.

Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

**Təqdimatın digər əsasları**

MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat tarixi dəyər əsasında tərtib edilmişdir.

MHBS-nin tətbiq edilməsi Cəmiyyətin mühasibat uçotu siyasətində dəyişikliklərə səbəb olmuşdur. Düzəliş edilmiş mühasibat prinsipləri aşağıda göstərilmişdir:

***Pul vəsaitləri və onların ekvivalentləri***

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri, banklarda yerləşdirilmiş cari hesablar və digər qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən üç ay və ya daha az ödəniş müddətinə malik qoyuluşlar daxildir. Nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təqdim etmək məqsədilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri yuxarıda göstərilmiş pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərindən ibarətdir.

***Maliyyə alətləri***

*Maliyyə aktivlərinin təsnifatı və ölçülməsi*

Cəmiyyət maliyyə aktivlərini üç ölçülmə kateqoriyasına təsnif edir: ədalətli dəyərdə ölçülmüş, digər məcmu gəlirdə tanınmış dəyişikliklər ilə ədalətli dəyərdə ölçülmüş və mənfəət və ya zərərdə tanınmış dəyişikliklər ilə ədalətli dəyərdə ölçülmə. Cəmiyyətin əsas maliyyə aktivləri ədalətli dəyərdə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya olunmuş dəyər və ya digər məcmu gəlirlər vasitəsilə ədalətli dəyərdə ölçülmüş maliyyə aktivləri üzrə tətbiq edir.

Əgər maliyyə aktivi üzrə kredit riski ilkin tanımadan sonra əhəmiyyətli dərəcədə artmışdırsa, maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyər ilə ölçülür.

Əgər hesabat tarixinə, ilkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artmamışdırsa, maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat 12 aylıq ehtimal olunan kredit zərərinə bərabər dəyər ilə ölçülür.

Debitor borcları və digər alınacaq vəsaitlər üçün əhəmiyyətli maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, dəyərsizləşmə ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçülür.

Yeni modelin tətbiqi ehtimal olunan kredit zərərləri üçün ehtiyat dəyərinin artmasına səbəb olmuşdur.

*Maliyyə öhdəliklərinin təsnif edilməsi və ölçülməsi*

Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə öhdəlikləri kimi təsnif edilir. Cəmiyyət ədalətli dəyərlə mənfəət və ya zərər hesabında göstərilən maliyyə öhdəliklərini təsnifləşdirmir.

***Avans ödənişləri***

Avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Avans ödənişi uzunmüddətli kimi o zaman təsnifatlaşdırılır ki, avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilir və ya avans ödənişi ilkin tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddir. Cəmiyyətin aktiv üzərində nəzarət əldə etdiyi və bu aktivlə əlaqədar gələcəkdə iqtisadi mənfəətlərin Cəmiyyətə axını ehtimal edildiyi hallarda aktivin əldə edilməsi üçün edilən avans ödənişləri aktivin qalıq dəyərinə ötürülür. Digər avans ödənişləri mallar və ya xidmətlər alındıqdan sonra mənfəət və zərər hesablarında əks etdirilir. Avans ödənişlərinə aid olan aktivlərin, malların və ya xidmətlərin alınmaması üzrə müəyyən göstəricilər yarandıqda avans ödənişinin qalıq dəyəri müvafiq olaraq silinir və dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında tanınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları faktiki qiymət və ya daha aşağı olarsa xalis mümkün satış qiyməti ilə uçota alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəkili dəyər üsulu ilə müəyyən olunur. Hazır məhsulun və yerinə yetirilməkdə olan işlərin maya dəyəri xam materiallardan, birbaşa işçi qüvvəsi xərclərindən, digər birbaşa xərclərdən və müvafiq inzibati xərclərdən ibarətdir (normal istehsalat imkanlarına istinadən). Borcun alınması ilə əlaqədar xərclər maya dəyərinə aid edilmir. Xalis mümkün satış qiyməti dedikdə əqdin tamamlanması və satış xərcləri çıxıldıqdan sonra, kommersiya fəaliyyətinin adi gedişində təxmin edilən satış qiyməti nəzərdə tutulur.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci il tarixindən etibarən tətbiq olunur. 1 yanvar 2008-ci il tarixdən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və gömrük komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barədə məlumat Vergilər Nazirliyi tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına ("ARMB") ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı ("BDX") tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Vergilər Nazirliyi təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmamışdır. Eyni zamanda BDX-da və ARMB-da elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin alt-hesablarına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Vergilər Nazirliyi xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı qalıqların istifadəsi məhduddur və yalnız ƏDV ilə əlaqədar əməliyyatlar üçün və digər tətbiq olunan vergilər üçün istifadə edilə bilər.

***Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin dəyərsizləşməsi***

Əmlak, tikili və avadanlıqlar, ilkin maliyyə vəziyyəti haqqında hesabatında, şərti ilkin dəyər kimi yenidən qiymətləndirmə tarixində ədalətli dəyər kimi, peşəkar, müstəqil qiymətləndiricilər tərəfindən qiymətləndirilmiş bazarı sübutları əsasında müəyyən edilmiş, amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, ədalətli dəyərdə şərh edilmişdir.

Qiymətləndirmə 1 yanvar 2018-ci il tarixində aparılmışdır.

Əmlak, tikili və avadanlıqların bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

Faydalı ömür təxminləri və amortizasiya üsulları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, tikili və avadanlıqlarını dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır. Dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında dərhal tanınır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınmayana qədər, bu halda dəyərsizləşmə zərərinə yenidən qiymətləndirmə azalması kimi yanaşılmalıdır, dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərərdə tanınmalıdır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, tikili və avadanlıqların tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

***Kreditor borcları və digər ödəniləcək vəsaitlər***

Kreditor borcları o hallarda hesablanır ki, qarşı tərəf müqavilə üzrə öhdəliklərini yerinə yetirsin və həmin borclar faktiki faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya edilmiş dəyər ilə uçota alınır.

***Borc alınmış vəsaitlər***

Borc alınmış vəsaitlər faktiki faiz dərəcəsi əsasında amortizasiya edilmiş dəyər ilə uçota alınır. Əmlak və avdanlığın tikilməsinin maliyyələşdirilməsi üçün borc alınmış vəsaitlər ilə əlaqədar olan məsrəflər faktiki faiz dərəcəsi əsasında vaxt müddətinə münasib qaydada kapitallaşdırılır. Bütün digər borc alınmış vəsaitlər xərclər kimi tanınır.

***Maliyyə öhdəliklərinin tanınmasına xitam verilməsi***

Cəmiyyət, maliyyə öhdəliklərinə yalnız Cəmiyyətin öhdəliklərinin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatması hallarında xitam verir. Tanınmasına xitam verilmiş maliyyə öhdəliyinin qalıq dəyəri ilə ödənilmiş və ya ödəniləcək məbləğlərin cəmi arasındakı fərq dərhal mənfəət və zərər hesablarında tanınır.

*Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi*

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda və ya eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə əvəzləşdirilmir.

**Vergi qanunvericiliyi**

*Mənfəət vergisi*

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir.

Vergiyə cəlb edilən mənfəət, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman öhdəlik üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

***Əlavə dəyər vergisi***

Ödəniləcək ƏDV və iddia olunan alınacaq ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi, vergi orqanlarına aşağıda qeyd edilmiş tarixlərdən daha tez olanında ödənilir: (a) müştərilərdən alınacaq vəsaitlərin alındığı zaman, və ya (b) mal və ya xidmətlərin müştərilərə təqdim edilməsi zamanı. Alınacaq ƏDV bir qayda olaraq, ƏDV hesab fakturası alındıqdan sonra, ödəniləcək ƏDV ilə əvəzləşdirilir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

***Torpaq vergisi***

Azərbaycan Respublikasında torpaq mülkiyyətçiləri və ya istifadəçiləri torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanan torpaq vergisini ödəməlidirlər.

0.01 AZN-dən 10 AZN-ə qədər təyin edilən müxtəlif vergi dərəcələri kənd təsərrüfatı, sənaye, tikinti, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələrinin tutduğu torpaqların növündən və eləcə də torpağın məskunlaşma yerindən asılıdır.

Hesabat dövrü bir təqvim ili sayılır. Torpaq mülkiyyətçiləri və ya istifadəçiləri hər il mayın 15-dən gec olmayaraq müvafiq bəyannaməni vergi orqanına təqdim etməlidirlər. Hesablanmış torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq müəssisələr tərəfindən ödənilməlidir.

***Əmlak vergisi***

Əmlakın qalıq dəyərindən artıq olan dəyərdə sığorta olunduğu və əmlak vergisinin bazar dəyərində hesablandığı hallar istisna olmaqla, daimi nümayəndəliklə bağlı rezident və qeyri-rezident müəssisələr üçün vergitutma obyekti onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Beləliklə, belə müəssisələr əmlak vergisini sahib olduqları əsas aktivlərin orta illik qalıq dəyərindən 1% dərəcəsi ilə ödəyirlər. Eyni vaxtda, rezident və qeyri-rezident fiziki şəxslərin vergitutma obyekti tikililər və onların hissələrindən, eləcə də fiziki şəxslərin su və hava nəqliyyatı vasitələrindən ibarətdir. Əmlak vergisinin dərəcəsi mülkiyyətdə olan aktivlərin növündən asılı olaraq fərqlənir.

Müəssisənin əmlak vergisi üçün vergi dövrü bir təqvim ili sayılır. Mülkiyyətində əsas aktivləri olan müəssisələr, vergi bəyannaməsini hesabat dövründən sonrakı ilin 31 mart tarixindən gec olmayaraq təqdim etməlidirlər. Əmlak vergisinin ödəyiciləri cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisi məbləğinin 20 faizi həcmində vergi ödəyir.

Azərbaycan Respublikasında Cəmiyyətin fəaliyyətləri üzrə təyin edilən digər vergi növləri də mövcuddur. Bu vergilər məcmu gəlir haqqında hesabata daxil edilmişdir.

***Nizamnamə kapitalı***

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarı tərəfindən qoyulmuş kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın razılığı ilə artıra və ya azalda bilər.

*Xarici valyuta əməliyyatları*

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutasıdır. Cəmiyyətin funksional valyutası Azərbaycan manatıdır.

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nin valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir.

İlin sonuna olan məzənnə ilə çevrilmələr kapital qoyuluşları daxil olmaqla, qeyri-monetar maddələrə tətbiq edilmir. Valyuta məzənnəsinin dəyişməsinin səhm qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyərin mənfəət və ya zərərinin bir hissəsi kimi qeydə alınır.

MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması zamanı Cəmiyyət tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **1 yanvar 2018-ci il** |
|---|---|
| AZN/ABŞ dolları | 1.7001 |
| AZN/Avro | 2.0307 |

***Şərti aktivlər və öhdəliklər***

Şərti aktivlər ilkin maliyyə vəziyyəti haqqında hesabatında tanınmır, lakin belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

Şərti öhdəliklər ilkin maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Biznes fəaliyyətlərinə xas olan qeyri-müəyyənliyin nəticəsi olaraq, maliyyə hesabatlarında bir sıra bəndlər dəqiqliklə qiymətləndirilə bilmir və yalnız təxmin olunması mümkündür. Qiymətləndirməyə MHBS əsasında ilkin maliyyə vəziyyəti haqqında hesabatın hazırlandığı zaman mövcud ən son məlumatlara əsaslanan mühakimələr daxildir. Gələcək inkişaf haqqında mövcud şərait və fərziyyələr Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişikliklərinə və ya şəraitə müvafiq olaraq dəyişə bilər. Belə dəyişikliklər baş verdikdə fərziyyələrdə əks etdirilir.

Əhəmiyyətli uçot təxminləri əmlak, tikili və avadanlıqların amortizasiya edilən faydalı ömürləri, maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal-material ehtiyatları üzrə ehtiyatların təmin edilməsi, vergi və hüquq sahəsində dəyişikliklər və təxirə salınmış vergi üzrə ehtiyatların təmin edilməsi ilə bağlıdır. Faktiki nəticələr bu təxminlərdən fərqlənə də bilər.

**Mülahizələr**

Cəmiyyət mühasibat uçotu standartlarının tətbiq edərkən, ilkin maliyyə vəziyyəti haqqında hesabatda tanınmış məbləğlər üzrə ən əhəmiyyətli təsiri olan ehtimallardan başqa bir neçə mülahizələr də irəli sürmüşdür.

***Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər 1 yanvar 2018-ci il tarixinə şərti ilkin dəyər olaraq ədalətli dəyərdə ölçülmüşdür.

Əmlak, tikili və avadanlıqların bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili və avadanlıqların və qeyri maddi aktivlərin şərti ilkin dəyər kimi ədalətli dəyərdə faydalı iqtisadi ömrü***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqların qalan faydalı iqtisadi ömürlərini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı ömürləri ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, MUBS 8 "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və qeyri-maddi mallyyə aktivlərinin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri, onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadədə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin ədalətli dəyəri onun əvəzolunma dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun qalıq dəyəri müvafiq olaraq azaldılır. İstifadədə olan dəyərin qiymətləndirilməsində təxmin edilmiş gələcək pul vəsaitlərinin axını pulun zaman dəyəri və aktivlərə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsindən istifadə etməklə cari dəyərə qədər diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyərin müəyyənləşdirilməsində cari bazar əməliyyatları nəzərə alınır (uyğun olduqda). Belə əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə edilir.

Cəmiyyət fərdi aktivin aid olduğu nağd pul yaradan vahidlərin (NPYV) hər biri üçün ayrı-ayrılıqda hazırlanmış təfsilatlı büdcə və proqnozlaşdırma hesablamaları üzrə xidmət potensialının dəyərinə əsaslanır. Büdcə və proqnozlaşdırma hesablamaları 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üzrə uzunmüddətli artım dərəcəsi müəyyənləşdirilir və 5-ci ildən sonra layihənin gələcək pul vəsaitlərinin axınına tətbiq olunur.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət, uyğun olduqda, köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının qalıq dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

*ƏDV-nin bərpası*

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət, planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir. Maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat, maliyyə aktivi üzrə kredit riski ilkin tanımadan sonra əhəmiyyətli dərəcədə artmışdırsa, ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyər ilə ölçülür.

Əgər hesabat tarixinə, ilkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artmamışdırsa, maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat 12 aylıq ehtimal olunan kredit zərərinə bərabər dəyər ilə ölçülür.

Debitor borcları və digər alınacaq vəsaitlər üçün əhəmiyyətli maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, baxmayaraq, ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçülür. Yeni modelin tətbiqi ehtimal olunan kredit zərərləri üçün ehtiyat dəyərinin artmasına səbəb olmuşdur.

*Cari vergilər*

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər.

Müvafiq olaraq, üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. 1 yanvar 2018-ci il tarixinə rəhbərlik, müvafiq qanunvericiliyə edilən şərhlərin düzgün olduğuna və Cəmiyyətin vergi, valyuta və gömrük mövqelərinin qorunmasının mümkün ola biləcəyinə inanır.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ŞƏRHLƏRİN QƏBUL EDİLMƏSİ

MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabatda Cəmiyyət, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2019-cu il tarixindək hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**MUBS 7 "Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat" standartına dəyişikliklər** – Cəmiyyət bu dəyişiklikləri cari ildə ilk dəfə tətbiq etmişdir. Dəyişikliklər müəssisənin maliyyə fəaliyyəti haqqında maliyyə hesabatlarının istifadəçilərinə təmin edilmiş məlumatları təkmilləşdirmək məqsədilə MUBS 7 standartına aydınlıq gətirilməsini nəzərdə tutur.

Bu məqsədə nail olmaq üçün MUBSŞ maliyyə fəaliyyəti nəticəsində yaranmış öhdəliklərdə aşağıda qeyd olunmuş dəyişikliklərin açıqlanmasını (zəruri olduğu dərəcədə) tələb edir: (i) maliyyələşdirmə fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərindən irəli gələn dəyişikliklər; (ii) törəmə müəssisələrə və ya digər müəssisələrə nəzarət hüququnun əldə olunması və ya itirilməsindən irəli gələn dəyişikliklər; (iii) xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri; (iv) ədalətli dəyərdə dəyişikliklər; və (v) digər dəyişikliklər.

**MUBS 12 "Mənfəət Vergisi" standartına dəyişikliklər** – MUBS 12 "Mənfəət Vergisi" standartına olunmuş dəyişiliklərin məqsədi təcrübədə standartın tətbiqi ilə bağlı yaranmış müxtəlifliyin aradan qaldırılması üçün borc alətləri ilə bağlı təxirə salınmış vergi aktivləri üzrə uçot aparılması qaydalarına və reallaşdırılmamış zərərlər üzrə təxirə salınmış vergi aktivlərinə aydınlıq gətirilməsidir.

**2014-2016-cı illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər, MHBS 12 "Digər müəssisələrdə iştirak paylarının açıqlanması" standartına dəyişikliklər** – Cəmiyyət, *2014-2016-cı illəri əhatə edən dövr üzrə MHBS-lərə İllik Düzəlişlərə* daxil edilmiş 12 saylı MHBS-ə cari ildə ilk dəyişikliklər tətbiq etmişdir. Bu paketə daxil edilmiş digər dəyişikliklər hesabat tarixində məcburi şəkildə qüvvəyə minməmişdir və onlar Cəmiyyət tərəfindən hal-hazırda qəbul edilməmişdir.

12 saylı MHBS-də bildirilir ki, müəssisə tərəfindən satış üçün saxlanılan kimi təsnifləşdirilən törəmə müəssisələrdə, assosiasiyalarda yaxud birgə müəssisələrdə iştirak payları haqqında ümumiləşdirilmiş maliyyə məlumatı təmin etməsi tələb olunur. Dəyişiklik onu təsnif edir ki, bu analoji investisiyalar üçün açıqlanma 12 saylı MHBS-in tələblərindən verilmiş yeganə imtiyazdır.

**2014-2016-cı illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** 1 saylı MHBS-ə və 28 saylı MUBS-a edilmiş, lakin Cəmiyyət üçün məcburi qaydada qüvvəyə minməmiş dəyişiklikləri ehtiva edir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 1 "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə Tətbiq edilməsi" | İlk dəfə tətbiq edənlər üçün qısamüddətli istisnaların silinməsi: Düzəlişlər MHBS 7, MUBS 19, MHBS 12 və MUBS 27 ilə əlaqədar olan MHBS 1-də qısamüddətli istisnaları aradan qaldırır. |
| MUBS 28 "Asılı Təsərrüfat Cəmiyyətlərinə İnvestisiya Qoyuluşları" | Asılı və ya birgə müəssisələrin ədalətli dəyərdə ölçülməsi: Düzəlişlər aydınlıq gətirir ki, vençur təşkilat və ya digər ixtisaslaşmış qurum olan müəssisə tərəfindən saxlanılan asılı və birgə müəssisələrdə investisiya qoyuluşlarının mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə ölçmək üçün seçkilər ilkin tanınma zamanı investisiyalar əsasında asılı və ya birgə müəssisələrdə hər bir investisya üçün mövcuddur. |

MUBS və MUSŞ mövcud MHBS və ABŞ ÜQMP gəlir tələblərini əvəz edəcək birgə gəlirin tanınması standartı **MUBS 15 "Müştərilərlə bağlanmış Müqavilələr üzrə Gəlirlər"** hazırlamışlar. MHBS 15 standartı MHBS rəyçisinin gəlirin necə və nə vaxt tanımasını, eyni zamanda belə müəssisələrin istifadəçiləri daha dolğun və uyğun açıqlamalar ilə təmin edəcəyini müəyyənləşdirir. Standart yeganə olaraq, müştərilərlə bağlanmış müqavilələrə tətbiq ediləcək beş-pilləli prinsiplər modelini təqdim edir. MHBS 15 standartı 2014-cü ilin may ayında hazırlanmışdır və fəaliyyətin başlanması tarixi 1 yanvar 2018-ci il tarixində başlamış illik dövrlər üçün tətbiq olunacaqdır. Erkən tətbiq edilməsinə icazə verilir.

**MUBS 40 "İnvestisiya Mülkiyyətinin Transferləri"** aydınlaşdırır ki, müəssisə yalnız əmlakın istifadəsində baş vermiş dəyişikliyə dair sübut olduğu halda əmlakı yalnız investisiya mülkiyyətinə/mülkiyyətindən təsnifləşdirə bilər. Dəyişikliklər 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üzrə qüvvədədir. Erkən tətbiq edilməsinə icazə verilir. Müəssisə dəyişikliklərin ilk dəfə tətbiq olunduğu illik hesabat dövründə və ya hesabat dövrünün başlanmasında sonra baş vermiş istifadə edilmiş dəyişikliklərə olan düzəlişləri tətbiq edir. Keçmişə nəzər salmadan istifadəsi mümkün olduqda retrospektiv tətbiqinə də icazə verilir.

**BMHŞK 22 "Xarici Valyuta ilə Həyata keçirilən Əməliyyatlar və Əvvəlcədən Ödəmələr"** standartı aşağıdakı hallarda xarici valyuta əməliyyatlarına və ya onun hissələrinə xitab edir:

- Xarici valyuta ilə göstərilən və ya qiymətləndirilən ödənişlər mövcuddursa;
- Müəssisə vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəliklərini həmin ödənişlər ilə bağlı müvafiq aktiv, xərc və gəlirin tanınmasından əvvəl tanıyırsa; və
- Vaxtından əvvəl ödənilən aktivlər və ya təxirə salınmış gəlir öhdəlikləri qeyri-monetar hesab olunarsa.

Şərhlər Komitəsi aşağıdakı qənaətə gəlib ki, valyuta məzənnəsini müəyyənləşdirmək məqsədilə həyata keçirilən əməliyyatın tarixi vaxtından əvvəl ödənilən qeyri-monetar aktivlər və ya təxirə salınmış vergi öhdəliklərinin ilkin tanınma tarixidir. Vaxtından əvvəl ödənilən çoxsaylı ödənişlər və ya daxilolmalar mövcud olarsa, əməliyyatın tarixi hər bir ödəniş və ya daxilolma üzrə təyin edilir. Şərh 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üzrə qüvvədədir. Erkən tətbiq edilməsinə icazə verilir.

**MHBS 9 "Maliyyə Alətləri" standartı** – 2014-cü ilin iyul ayında MBUSŞ, maliyyə alətləri layihəsinin bütün mərhələlərini əks etdirən və *Maliyyə Alətləri: Tanınma və Ölçmə* standartına dair 39 saylı MUBS-i əvəz edən 9 saylı MHBS *Maliyyə Alətləri* standartının son versiyasını və 9 saylı MHBS-in bütün əvvəlki versiyalarını dərc etmişdir. Standart standartlaşdırma və ölçmə, dəyərsizləşmə və hecinq uçotu üçün yeni tələbləri təqdim edir.

- Təsnifat və ölçmə aspektindən, yeni dərc edilmiş bu standart, kapital alətləri və törəmə maliyyə alətləri istisna olmaqla, aktivlərini idarə edilməsi üçün müəssisənin biznes modelinin və alətlərin müqavilələi pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinin birləşməsi əsasında bütün maliyyə aktivlərinin qiymətləndirilməsini tələb edəcəkdir. MUBS 39 standartının qiymətləndirmə kateqoriyaları növbəti kateqoriyalarla əvəz ediləcək: mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZHƏD), digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGƏD) və amortizasiya edilmiş dəyərlər kateqoriyası. 9 saylı MHBS, müəssisələrə amortizasiya edilmiş xərclərə və ya DMGƏD alətlərinə MZHƏD kimi uyğunlaşdırmaq üçün imkan verəcək ki, bu da ölçmə və ya tanınma uyğunsuzluğunu aradan qaldıracaq və ya əhəmiyyətli dərəcədə azaldacaq. Ticarət üçün saxlanılmayan kapital alətləri, DMGƏD kimi geri qaytarılmayacaq şəkildə təyin edilə bilər, bu da gəlir hesabatında mənfəət və ya zərərin sonradan yenidən təsnifləşdirilməməsi ilə mümkündür. Maliyyə öhdəliklərinin mühasibat uçotu 39 saylı MUBS-un tələblərinə əsasən eyni olacaq;
- 9 saylı MHBS Cəmiyyətin bütün borc qiymətli kağızları, kreditlər və debitor borcları üzrə gözlənilən kredit itkilərini həm 12 aylıq və ya ömürlük əsasda uçota almağı tələb edir. Cəmiyyət bütün debitor borcları üzrə sadələşdirilmiş yanaşmanın tətbiqini və gözlənilən ömürlük zərərləri uçota almağı ehtimal edir. 9 saylı MHBS-in qəbul edilməsi nəticəsində öz kapitalına əhəmiyyətli dərəcədə təsir göstəriləcəyini planlaşdırır, lakin təsir əhatisinin müəyyənləşdirilməsi üçün irəli görünən elementlər də daxil olmaqla, bütün məqbul və dəstəklənən məlumatları nəzərə alan daha ətraflı təhlil aparmaq lazımdır.

9 saylı MHBS, 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və erkən tətbiq edilməsinə icazə verilir. Retrospektiv tətbiq tələb olunur, lakin müqayisəli məlumatın yenidən bəyan edilməsi tələb olunmur.

**MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına düzəliş** – MUBSŞ, MHBS 2 "Pay Alətləri Əsasında Ödəmə" standartına yekun düzəlişlərini açıqlamışdır. Həmin düzəlişlər pay alətləri əsasında ödəmə əməliyyatlarının təsnif edilməsinə və ölçülməsinə aydınlıq gətirir.

***Fəaliyyətin keyfiyyət şərtlərinin daxil olduğu dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələrinin uçotu***

Bu düzəlişlər olunana qədər, MHBS 2 standartında dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə sövdələşmələri üzrə öhdəliklərin ədalətli dəyərinə hüququn verilməsi şərtlərinin hansı şəkildə təsir göstərməsi ilə bağlı hər hansı təlimat daxil edilməmişdir. MUBSŞ, kapital alətləri vasitəsilə həyata keçirilən pay alətləri əsasında ödəmələr üzrə istifadə olunmuş eyni yanaşmanı davam etdirən dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmələr üzrə uçot tələblərini təqdim edən təlimat əlavə etmişdir.

***Xalis ödəmə xüsusiyyətləri ilə pay alətləri əsasında ödəmə sövdələşmələrinin təsnifatı***

MUBSŞ, MHBS 2 satndartına istisna tətbiq etmişdir. İstisna nəticəsində, müəssisə ödənişlərini pay alətləri əsasında ödəmə sövdələşmələri ilə həyata keçirdikdə pay alətləri əsasında ödəmələr təmin olunmuş tamlıqda kapital alətləri əsasında ödəmələr olaraq təsnif edilir.

***Dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçərkən pay alətləri əsasında ödəməyə düzəlişlərin uçota alınması***

Bu düzəlişlər olunana qədər, MHBS 2 şərtlər və şərait ilə bağlı düzəlişlər səbəbilə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmədən kapital alətləri əsasında ödəməyə keçdiyi zamanda baş verən halları nəzərdə tutmamışdır. MUBSŞ aşağıdakı izahatları təqdim edir:

- Belə dəyişikliklərdə dəyərinin nağd ödənilməsi müəyyənləşdirilmiş səhmlər əsasında ödəmə ilə tanınmış əsl öhdəliyin tanınması dayandırılır və kapital alətləri vasitəsilə həyata keçirilən ödəmələr düzəliş tarixinə qədər yerinə yetirilmiş xidmətlər dərəcəsində ədalətli dəyərə düzəliş tarixində tanınır;
- Düzəliş tarixinə öhdəliyin qalıq məbləği və eyni tarixdə kapitalda tanınmış məbləğ arasında fərq yaranarsa, həmin fərq dərhal mənfəət və zərər hesablarında tanınacaq.

**MHBS 15 "Müştərilərlə bağlanmış Müqavilələr üzrə Gəlirlər" -** gəlirlərin tanınması üçün vahid struktur təşkil edir və müvafiq açıqlamaları özündə birləşdirir. Yeni standart MUBS 18 "Gəlirlər" və MUBS 11 "Tikinti müqavilələri"-ni və Gəlirlərin tanınması üzrə əlaqəli şərhləri əvəz edir. Cəmiyyətin həyata keçirdiyi təhlilin nəticələrinə görə ilkin maliyyə vəziyyəti haqqında hesabatda göstərilmiş standartın üzrə əhəmiyyətli təsiri yoxdur.

**MHBS 16 "İcarələr"**, MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan vahid mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

MHBS 16 "İcarələr", 13 yanvar 2016-cı il tarixində dərc olunmuşdur və 1 yanvar 2019-cu il tarixində və həmin tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

**BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik"**, 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

Bu şərh, 1 yanvar 2019-cu il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

**2015-2017-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 3 "Biznes Kombinasiyaları" və MHBS 11 "Birgə Razılaşmalar" | MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin biznesla bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır. |
| BMU 12 "Mənfəət Vergisi" | Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır. |
| BMU 23 "Borc üzrə Xərclər" | Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir. |

Bütün bu düzəlişlər, 2019-cu ilin 1 yanvar tarixindən yaxud ondan sonra baş verəcək.

**MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər** – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər** – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-ə dair dəyişiklikləri dərc etmişdir.

*Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri* - mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-in mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

Bu düzəlişlər 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

Yuxarıda qeyd ediləndən fərqli şəkildə təsvir edilmədiyi təqdirdə, yeni Standartlar və Şərhlər Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir etməyəcək.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDART VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə vəziyyəti üzrə ilkin MHBS üzrə hesabatların təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş lakin qüvvəyə minməmişdir.

**MHBS 17 "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 "Sığorta müqavilələri"-ni tətbiq etməlidir.

MHBS 17, 2021-ci il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. MHBS 15 "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və MHBS 9 "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

Rəhbərlik bu standartların MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabata təsirini və Cəmiyyət tərəfindən bu standartların qəbul olunma müddətini nəzərdən keçirir.

## 6. MHBS-NİN QƏBUL OLUNDUĞU İLK TARİX

Cəmiyyət, 1 yanvar 2018-ci il tarixində MHBS-ə keçid tarixi olmaqla 2018-ci ildə MHBS-ni qəbul etmişdir. Cəmiyyətin MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabatı Azərbaycan Respublikasının əvvəlcədən qəbul edilmiş ÜQMUP ("əvvəlki ÜQMUP") çərçivəsində aşağıdakı kimi razılaşdırılmışdır:

1 yanvar 2018-ci il tarixinə MHBS-ə keçid təsiri və ilkin maliyyə vəziyyəti haqqında hesabat üzrə xətalara edilən düzəlişlər aşağıdakı kimi olmuşdur:

| Maliyyə vəziyyəti haqqında hesabat | Qeydlər | Əvvəlki ÜQMP (təqdim edildiyi kimi) | MHBS-ə/xətalara keçidin təsiri | MHBS (tənzimləndiyi kimi) |
|---|---|---|---|---|
| | | 1 yanvar 2018-ci il | 1 yanvar 2018-ci il | 1 yanvar 2018-ci il |
| Pul vəsaitləri və onların ekvivalentləri | a | 2,976,884 | (102) | 2,976,782 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | b | 544,725 | 1,679,295 | 2,224,020 |
| Mal-material ehtiyatları | c | 37,270,174 | (323,486) | 36,946,688 |
| Avans ödənişləri | d, e | (508,392) | 3,279,031 | 2,770,639 |
| Vergi aktivləri | e | 1,707,443 | (380,843) | 1,326,600 |
| Digər cari aktivlər | f | 596,130 | 29,344 | 625,474 |
| Əmlak, tikili və avadanlıqlar | g | 12,242,117 | 6,757,148 | 18,999,265 |
| Əmlak , tikili və avadanlıqlar üzrə ödənilmiş avanslar | d | - | 747,531 | 747,531 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | d, h | 1,256,396 | 2,825,377 | 4,081,773 |
| Qısa müddətli faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | i | 12,178,212 | 1,698,508 | 13,876,720 |
| Alınmış avanslar | b | - | 1,977,368 | 1,977,368 |
| Ödəniləcək dividentlər | j | 1,426,078 | (1,426,078) | - |
| Digər cari öhdəliklər | f | 89,517 | 20,500 | 110,017 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | k | - | 1,210,537 | 1,210,537 |
| Uzun müddətli faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | i | 19,392,166 | (786,518) | 18,605,648 |
| Bölüşdürülməmiş mənfəət | a, c, d, f, g, h, i, j, k | 8,453,364 | 6,268,224 | 14,721,588 |

**Xətaların düzəlişi üzrə izahlar:**

a. Pul vəsaitləri və onların ekvivalentləri üzrə xarici valyuta zərərlərinə edilmiş düzəliş.
b. 298,073 AZN məbləğində debitor borcları və digər alınacaq vəsaitlər, alınmış avanslar və dəyərsizləşmə ehtiyatı üzrə yanlış təsnifat.
c. İnventar sayımı nəticəsində materialların mövcudluğu və mal-material ehtiyatlarının dəyərinin yüksək göstərilməsi.
d. 3,882,804 AZN məbləğində xalis təqdim olunan avans ödənişləri və kreditor borcları və digər ödəniləcək vəsaitlər üzrə yanlış təsnifat, 26,656 AZN məbləğində avans ödənişlərinin silinməsi, 904,975 AZN məbləğində avans ödənişləri və qısa müddətli borc alınmış vəsaitlərin düzgün təsnifatı, 1,115,404 AZN məbləğində eyni qarşı tərəflərlə xalis avans ödənişləri və kreditor borcları və ödəniləcək digər vəsaitlər və 747,531 AZN məbləğində əmlak və avadanlıqlar üzrə ödənilmiş avansların düzgün təsnifatı.
e. 380,843 AZN məbləğində alınmış avanslar üzrə vergi aktivlərinin dəyərinin yüksək göstərilməsi.
f. 20,500 AZN məbləğində digər aktivlər və digər öhdəliklərin yanlış təsnifatı və 8,844 AZN məbləğində peşəkar xidmətlər üzrə ödənilmiş ƏDV-nin tanınması.
g. 6,757,148 AZN məbləğində yenidən qiymətləndirmə təsirinin tanınması (şərti ilkin dəyər kimi ədalətli dəyər).
h. 57,977 AZN məbləğində peşəkar xidmətlərin tanınması.
i. 128,185 AZN məbləğində hesablanmış faiz xərcinin tanınması, 121,170 AZN məbləğində hesablanmış faiz xərcinin dəyərinin yüksək göstərilməsi və 553,025 AZN məbləğində uzunmüddətli faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlərin qısamüddətli faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlərə yenidən təsnif edilməsi.
j. Digər ehtiyatlara ödəniləcək dividendlərin 1,426,078 AZN məbləğində yenidən təsnifləndirilməsi.
k. Təxirə salınmış mənfəət vergisi öhdəliyinin tanınması.

## 7. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onlrın ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | **1 yanvar 2018-ci il** |
|---|---|
| Kassadakı nağd vəsaitlər | 2,858,361 |
| Banklardakı nağd vəsaitlər | 118,421 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **2,976,782** |

Kassadakı nağd vəsaitlər nağd pul vasitəsilə həyata keçirilən satışlardan əldə edilən məbləğləri əks etdirir. Bu qalıqlar mütəmadi olaraq bank hesablarına köçürülmüş və Cəmiyyətin gələcək əməliyyatları üçün xərclənmişdir.

Banklardakı nağd pul vəsaitləri aşağıda göstərilmişdir:

| **Banklardakı nağd pul vəsaitləri** | **1 yanvar 2018-ci il** |
|---|---|
| "PAŞA Bank" ASC | 67,648 |
| "Unibank" ASC | 28,536 |
| Digər | 22,237 |
| **Cəmi banklardakı nağd pul vəsaitləri** | **118,421** |

## 8. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

Debitor borcları və digər alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | **1 yanvar 2018-ci il** |
|---|---|
| İstehsalat fəaliyyəti üzrə alınacaq vəsaitlər | 1,016,874 |
| Ticarət fəaliyyəti üzrə alınacaq vəsaitlər | 871,941 |
| Xidmət fəaliyyəti üzrə alınacaq vəsaitlər | 633,278 |
| Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | (298,073) |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər, xalis** | **2,224,020** |

Aşağıdakı cədvəldə sənaye tərəfindən təhlil edilən debitor borclarının balans dəyəri əks olunmuşdur:

| **Sənaye təhlili:** | **1 yanvar 2018-ci il** | |
|---|---|---|
| Korporativ müştərilər | 2,149,979 | 97% |
| Fərdi sahibkarlar | 74,041 | 3% |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **2,224,020** | **100%** |

Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ödənilməmiş qalıqlara heç bir faiz hesablanmır.

## 9. AVANS ÖDƏNİŞLƏRİ

Avans ödənişləri aşağıdakılardan ibarətdir:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| İstehsalat ehtiyatları üzrə avans ödənişləri | 1,253,158 |
| Ticarət ehtiyatları üzrə avans ödənişləri | 1,112,578 |
| Gömrük üzrə avans ödənişləri | 275,987 |
| Xidmət üzrə avans ödənişləri və digər | 128,916 |
| **Cəmi avans ödənişləri** | **2,770,639** |

Avans ödənişləri ticarət məqsədləri üçün xammal və mal təchizatçılarına ödənilən məbləğləri əks etdirir.

## 10. VERGİ AKTİVLƏRİ

1 yanvar 2018-ci il tarixinə, 1,326,600 AZN məbləğində olan vergi aktivləri Azərbaycan Respublikasının Vergilər Nazirliyinə Cəmiyyətin digər ödəniləcək vergiləri ilə ödənilməli olan ƏDV üzrə alınacaq vəsaitləri və əvvəlcədən ödənilmiş, ödəmə mənbəyində tutulan vergiləri əks etdirir.

## 11. MAL-MATERİAL EHTİYATLARI

Mal-material ehtiyatları aşağıdakılardan ibarətdir:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| Ticarət malları | 20,132,397 |
| Xammal | 7,546,282 |
| Hazır istehsalat malları | 4,473,238 |
| Tranzitdə olan mallar | 2,732,802 |
| Ehtiyat hissələri | 1,389,353 |
| Hal-hazırda davam edən istehsal | 325,453 |
| Qablaşdırma və digər mal-material ehtiyatları | 296,130 |
| Digər | 51,033 |
| **Cəmi mal-material ehtiyatları** | **36,946,688** |

Ticarət malları, əsasən, pərakəndə satış üçün MDB ölkələrindən gətirilən elektrik qaynaqlı polad boruları və metal döymə məmulatlarını təmsil edir.

Xammal əsasən plastik borular, boru kəməri komponentləri və fitinq istehsalında istifadə olunur.

## 12. DİGƏR CARİ AKTİVLƏR

Digər cari aktivlər aşağıdakılardan ibarətdir:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| ƏDV depozit hesabı | 471,719 |
| Ödənilmiş ƏDV | 133,255 |
| Digər | 20,500 |
| **Cəmi digər cari aktivlər** | **625,474** |

## 13. ƏMLAK, TİKİLİ, AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Torpaq və binalar | İstehsal avadanlıqları | Nəqliyyat vasitələri | Kompüter avadanlıqları | Məhsuldar bitkilər | Mebel və qurğular | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Şərti ilkin dəyər olaraq ədalətli dəyər/ilkin dəyər** | | | | | | | |
| **1 yanvar 2018-ci il** | **1,551,733** | **11,418,014** | **1,153,017** | **939,130** | **3,927,880** | **9,491** | **18,999,265** |

1 yanvar 2018-ci il tarixinə 12,243,947 AZN məbləğində əmlak, tikili və avadanlıqlara daxil edilmiş faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər üzrə girov qoyulmuşdur.

Qeyri-maddi aktivlər 330,662 AZN məbləğində proqram təminatı və lisenziyalardan ibarətdir.

## 14. ƏMLAK VƏ AVADANLIQLAR ÜZRƏ ÖDƏNİLMİŞ AVANSLAR

1 yanvar 2018-ci il tarixinə 747,531 AZN məbləğində əmlak və avadanlıqlar üzrə ödənilmiş avanslar əsasən "Akbal Makina" LTD-yə istehsalat avadanlıqları üçün avans ödənişlərini təmsil edir. "Akbal Makina" LTD Türkiyə Respublikasında yerləşən əlaqəli tərəfdir.

## 15. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

Kreditor borcları və digər ödəniləcək vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| Ticarət üçün nəzərdə tutulmuş mal-material ehtiyatları üzrə ödəniləcək vəsaitlər | 2,688,976 |
| Əmlak və avadanlıqlar üzrə ödəniləcək vəsaitlər | 559,415 |
| Xidmətlər üzrə ödəniləcək vəsaitlər | 467,039 |
| İstehsalat ehtiyatları üzrə ödəniləcək vəsaitlər | 215,374 |
| Digər ödəniləcək vəsaitlər | 150,969 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **4,081,773** |

## 16. FAİZ XƏRCİ YARADAN KREDİTLƏR VƏ BORC ALINMIŞ VƏSAİTLƏR

Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər aşağıdakılardan ibarətdir:

| Kreditor | Effektiv faiz dərəcəsi | Valyuta | Ödəmə tarixi | 1 yanvar 2018-ci il |
|---|---|---|---|---|
| **Cari hissə:** | | | | |
| **"PAŞA Bank" ASC** | | | Ödəmə tarixi | **4,080,540** |
| Kredit Xətti 1 | 7% | ABŞ dolları | 5-yan-2018 | 198,971 |
| Kredit Xətti 2 | 19% | AZN | 19-iyun-2018 | 2,841,677 |
| Kredit Xətti 3 | 18% | AZN | 28-sent-2018 | 433,480 |
| Korporativ Kredit 1 | 18% | AZN | 28-sent-2018 | 585,238 |
| Korporativ Kredit 2 | 19% | AZN | 19-iyun -2019 | 9,923 |
| Korporativ Kredit 3 | 6% | AZN | 19-iyun -2024 | 11,251 |
| **"Unibank" ASC** | | | | **6,659,043** |
| Korporativ Kredit | 16% | AZN | 17-may-2018 | 6,659,043 |
| **Səhmdardan alınmış borc vəsaitləri** | | | | **2,119,839** |
| Kredit 2 | 9% | AZN | 12-yan-2020 | 2,119,839 |
| **Digər tərəflərlə əlaqəli borclar** | | | | **1,017,298** |
| Kredit 1 | Faizsiz | AZN | 13-fev-2018 | 1,017,298 |
| **Cəmi cari hissə:** | | | | **13,876,720** |
| **Uzun müddətli hissə:** | | | | |
| **"PAŞA Bank" ASC** | | | | **7,466,815** |
| Korporativ Kredit 2 | 19% | AZN | 19-iyun-2019 | 1,566,815 |
| Korporativ Kredit 3 | 6% | AZN | 19-iyun-2024 | 5,400,000 |
| Korporativ Kredit 4 | 6% | AZN | 23-dek-2024 | 500,000 |
| **Səhmdardan alınmış borc vəsaitləri** | | | | **11,138,833** |
| Kredit 1 | 9% | AZN | 17-may-2020 | 10,000,000 |
| Kredit 2 | 9% | AZN | 12-yan-2020 | 1,138,833 |
| **Cəmi uzun müddətli hissə:** | | | | **18,605,648** |
| **Cəmi faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər** | | | | **32,482,368** |

Cəmiyyət borc alınmış vəsaitlərlə əlaqəli maliyyə şərtlərinə riayət etmək öhdəliyinə malik deyil.

20 dekabr 2017-ci il tarixində Cəmiyyət AYİB ilə 9,450,000 ABŞ dolları məbləğində 9.98% faiz dərəcəsi ilə 7 il müddətinə kredit müqaviləsi bağlamışdır. Məbləğin iki tranş ilə təmin olunması nəzərdə tutulurdu (7,100,000 ABŞ dolları və 2,350,000 ABŞ dolları). Cəmiyyət müxtəlif maliyyə şərtlərinə riayət etmək öhdəliyinə malikdir. Cəmiyyət bu kredit üçün torpaq sahəsi, bir neçə avadanlıq, mal-material ehtiyatları və bütün buraxılmış səhmləri girov qoymuşdur. 1 yanvar 2018-ci il tarixinə bu kredit üzrə heç bir ödəniş olmamışdır.

1 yanvar 2018-ci il tarixinə 12,243,947 AZN məbləğində əmlak və avadanlıqlar faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər üzrə girov qoyulmuşdur.

## 17. ALINMIŞ AVANSLAR

| | 1 yanvar 2018-ci il |
|---|---|
| İstehsalat fəaliyyəti üzrə alınmış avanslar | 1,001,140 |
| Ticarət fəaliyyəti üzrə alınmış avanslar | 596,186 |
| Xidmət fəaliyyəti üzrə alınmış avanslar | 380,042 |
| **Cəmi alınmış avanslar** | **1,977,368** |

## 18. DİGƏR CARİ ÖHDƏLİKLƏR

| | 1 yanvar 2018-ci il |
|---|---|
| İşçilərlə əlaqəli ödəniləcək vəsaitlər | 107,612 |
| Digər | 2,405 |
| **Cəmi digər cari öhdəliklər** | **110,017** |

## 19. TƏXİRƏ SALINMIŞ MƏNFƏƏT VERGİSİ ÖHDƏLİYİ

Cəmiyyət ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dən fərqli ola bilər.

Cəmiyyət bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olduğundan daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər və növbəti dövrlərə keçirilmiş vergi zərəri arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir. 1 yanvar 2018-ci il tarixinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar, zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergitutma əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə başlanğıc verə bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə MHBS əsasında hazırlanmış ilkin maliyyə vəziyyəti haqqında hesabat üçün əhəmiyyətli olacaq əlavə vergilər, cəzalar və faizlər təyin oluna bilər.

1 yanvar 2018-ci il tarixinə olan müvəqqəti fərqlərə aşağıdakılar daxildir:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 102 |
| Avans ödənişləri | 26,656 |
| Mal-material ehtiyatları | 323,486 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 298,073 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 57,977 |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 7,015 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **713,309** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | |
| Əmlak, tikili və avadanlıqlar | (6,757,148) |
| Digər cari aktivlər | (8,844) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(6,765,992)** |
| Xalis vergi bazasını artıran müvəqqəti fərqlər | (6,052,683) |
| **Təxirə salınmış mənfəət vergisi öhdəliyi** | **(1,210,537)** |

## 20. NİZAMNAMƏ KAPİTALI

1 yanvar 2018-ci il tarixinə nizamnamə kapitalı, hər birinin nominal dəyəri 1,236,401 AZN olan 10 ədəd səhmdən ibarət olmuş və 12,364,010 AZN təşkil etmişdir. Cəmiyyətin bütün səhmləri cənab Alik Kərimova məxsusdur.

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində qarşı tərəflər və müştərilər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, heç bir hesablanmamış mühüm itkilər yaranmayacaq və bu səbəbdən də ilkin maliyyə vəziyyəti haqqında hesabatda ehtiyatlar nəzərdə tutulmamışdır.

### Vergi məsələləri

Azərbaycan Respublikasının kommersiya və vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə başlanğıc verə bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə əlavə vergilər, cəzalar və faizlər təyin oluna bilər. Cəmiyyət hesab edir ki, artıq bütün vergi ödəmələrini həyata keçirmişdir və buna görə də ilkin maliyyə vəziyyəti haqqında hesabatda heç bir ehtiyat verilməmişdir. Vergi illəri vergi orqanları tərəfindən baxış üçün üç il müddətinə açıq qalır.

### Kredit şərtləri

20 dekabr 2017-ci il tarixində Cəmiyyət AYİB ilə 9,450,000 ABŞ dolları məbləğində 9.98% illik faiz dərəcəsi ilə 7 il müddətinə kredit müqaviləsi imzalamışdır. Məbləğ 2 tranş (7,100,000 ABŞ dolları və 2,350,000 ABŞ dolları) ilə təmin olunmalıdır. Cəmiyyət müxtəlif maliyyə şərtlərinə riayət etmək üzrə öhdəliklər daşıyır.

## 22. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

MUBS 24 "Əlaqəli tərəflərlə bağlı qeydlər" standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Cəmiyyətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Cəmiyyətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Cəmiyyətin və ya ana şirkətin idarə heyətinin üzvləri;

(d) (a) və ya (ç) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(e) (ç) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Cəmiyyətin keçmiş işçiləri və ya Cəmiyyətin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Hər bir əlaqəli tərəf münasibətini nəzərdən keçirərkən diqqət yalnız hüquqi formaya deyil, eyni zamanda əlaqənin mahiyyətinə yönəldilmişdir. Cəmiyyət və digər əlaqəli tərəflər arasındakı əməliyyatların təfərrüatları aşağıda göstərilmişdir:

| | 1 yanvar 2018-ci il | |
|---|---|---|
| | **Əlaqəli tərəflərlə ehtiyatlar** | **İlkin maliyyə vəziyyəti haqqında hesabat üzrə cəmi kateqoriya** |
| **Debitor borcları və digər alınacaq vəsaitlər:** | | **2,224,020** |
| - *Əlaqəli tərəflər* | 457,973 | |
| **Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər:** | | **32,482,368** |
| - *Əlaqəli tərəflər* | 14,275,970 | |
| **Əmlak, tikili və avadanlıqlar üzrə ödənilmiş avanslar:** | | **747,531** |
| - *Əlaqəli tərəflər* | 637,221 | |

## 23. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Cəmiyyətin başlıca maliyyə alətləri bank kreditləri, nağd pul vəsaitləri və bank əmanətlərindən ibarətdir. Bu alətlərin əsas məqsədi Cəmiyyətin əməliyyatları üzrə maliyyələşdirməni artırmaqdır.

Cəmiyyətin əməliyyatları nəticəsində birbaşa yaranan debitor və kreditor borcları şəklində digər maliyyə aktivləri və öhdəlikləri mövcuddur.

Cəmiyyət kredit, likvidlik və bazar risklərinə məruz qalır. Maliyyə risklərinə Cəmiyyətin Korporativ Maliyyə Departamenti tərəfindən nəzarət olunur. Kredit, valyuta və faiz dərəcəsi riskləri korporativ maliyyə riskləri üzrə idarəetmə siyasətləri ilə tənzimlənir. Cəmiyyət, həmçinin bütün törəmə müəssisələrində də mərkəzləşdirilmiş maliyyə riskinin idarə edilməsini təmin edir.

**Kredit riski**

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Cəmiyyətə dəyə biləcək potensial maliyyə zərəridir. Cəmiyyət pul vəsaitlərini maliyyə təşkilatlarında saxlayır. Rəhbərlik, pul vəsaitlərini yerləşdirdiyi bankların kredit qabiliyyətinə nəzarət edir və Cəmiyyət tərəfindən hər bir maliyyə təşkilatlarında yerləşdirilmiş əmanətlərin təsdiq edilmiş həddi keçməməsini təmin edir. Bu limitlər maliyyə təşkilatlarının fəaliyyətlərinin kəmiyyət və keyfiyyət təhlilləri daxil olan korporativ siyasətlərə müvafiq qaydada rüblük olaraq yenidən hesablanılır.

Bu limitlərə Cəmiyyətin Korporativ Maliyyə Departamenti tərəfindən nəzarət edilir və təsdiqlənir. Cəmiyyətin potensial kredit riskinə məruz qalan aktivlərə əsasən maliyyə aktivləri, debitor borcları və kreditlər üzrə debitor borclarıdır. Bu maliyyə aktivlərinin qalıq dəyəri dəyərsizləşmə çıxılmaqla kredit riskinə məruz qalan maksimum məbləği əks etdirir. Aşağıda müzakirə edilən məsələlər istisna olmaqla, Cəmiyyətin əhəmiyyətli kredit riski konsentrasiyası mövcud deyil. Debitor borclarının yığılmasına iqtisadi amillərin təsir göstərə biləcəyinə baxmayaraq, rəhbərlik inanır ki, artıq qeydə alınmış dəyərsizləşmədən başqa Cəmiyyətin zərərlə bağlı əhəmiyyətli riskləri mövcud deyil.

1 yanvar 2018-ci il tarixinə kredit riskinə maksimal məruz qalma maliyyə aktivlərinin qalıq dəyərinə bərabərdir. Aşağıda qeyd olunur:

| | 1 yanvar 2018-ci il |
|---|---|
| **Maliyyə aktivləri:** | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 2,224,020 |
| Pul vəsaitləri və onların ekvivalentləri (nağd pul çıxılmaqla) | 118,421 |
| **Cəmi maliyyə aktivləri** | **2,342,441** |

**Coğrafi konsentrasiya**

Rəhbərlik həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə və bu risklərin Cəmiyyətin fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Cəmiyyətə Azərbaycan Respublikasında investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimal həddə salmağa şərait yaradır.

Aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Digər qeyri İƏİT ölkələri | 1 yanvar 2018-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 1,766,047 | - | 457,973 | 2,224,020 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,976,782 | - | - | 2,976,782 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **4,742,829** | **-** | **457,973** | **5,200,802** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 32,482,368 | - | - | 32,482,368 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 597,118 | 3,368,181 | 116,474 | 4,081,773 |
| Digər maliyyə öhdəlikləri | 110,017 | - | - | 110,017 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **33,189,503** | **3,368,181** | **116,474** | **36,674,158** |
| **XALİS MÖVQE** | **(28,446,674)** | **(3,368,181)** | **341,499** | **(31,473,356)** |

**Likvidlik riski**

Likvidlik riski Cəmiyyətin ödəmə vaxtı çatmış maliyyə öhdəliklərinin yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Cəmiyyətin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə, münasib olmayan zərər çəkməyərək və ya Cəmiyyətin nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir.

Likvidlik riskini idarə etmək məqsədi ilə Cəmiyyət kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Cəmiyyət, gözlənilən əməliyyat xərlcəri, maliyyə öhdəlikləri və investisiya fəaliyyətlərini maliyyələşdirmək üçün tələb olunan pul vəsaitinin kifayət qədər olmasından əmin olmaq üçün aylıq olaraq maliyyə planı hazırlayır. Cəmiyyət, kreditor borcları ilə bağlı standart ödəniş dövrlərini inkişaf etdirir və təchizatçılara və podratçılara ödənişlərin vaxtına nəzarət edir.

Aşağıdakı cədvəldə faiz ödənişləri daxil olmaqla müqavilədə nəzərədə tutulmuş güzəştsiz ödənişlər əsasında Cəmiyyətin maliyyə öhdəliklərinin ödəmə tarixinə qədər olan müddəti əks olunur. Tələbnamə əsasında həyata keçirilən ödənişlər tələbnamənin dərhal verildiyi təxmini ilə təsnifləşdirilir. Müvafiq olaraq, bu öhdəliklər 1 ildən az müddət ərzində ödəniləcək vəsait olaraq qeydə alınır.

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 1 yanvar 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 1,955,330 | - | 268,690 | - | - | 2,224,020 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,976,782 | - | - | - | - | 2,976,782 |
| **Cəmi maliyyə aktivləri** | **4,932,112** | - | **268,690** | - | - | **5,200,802** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 2,445,495 | 1,017,298 | 10,413,925 | 12,705,650 | 5,900,000 | 32,482,368 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,522,358 | 559,415 | - | - | - | 4,081,773 |
| Digər maliyyə öhdəlikləri | 110,017 | - | - | - | - | 110,017 |
| **Cəmi maliyyə öhdəlikləri** | **6,077,870** | **1,576,713** | **10,413,925** | **12,705,650** | **5,900,000** | **36,674,158** |
| **Xalis likvidlik boşluğu** | **(1,145,758)** | **(1,576,713)** | **(10,145,235)** | **(12,705,650)** | **(5,900,000)** | **(31,473,356)** |

Aktiv və öhdəliklərin ödəniş müddətləri, həmçinin faiz hesablanan öhdəliklərini ödəniş vaxtı çatdıqda qəbul edilən dəyərdə dəyişdirilməsi imkanları Cəmiyyətin likvidliyinin, eləcə də faiz dərəcələrinin və valyuta məzənnəsinin dəyişkənliyinə nə dərəcədə həssas olmasının müəyyən edilməsində mühüm əhəmiyyət daşıyır.

Likvidlik və faiz dərəcəsi üzrə təhlillər MHBS 7 standartına müvafiq olaraq aşağıda göstərilən cədvəllərdə təqdim edilmişdir. Bu cədvəllərdə əks edilən məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən məbləğlərlə uyğun deyil, ona görə ki, aşağıdakı təqdimat maliyyə öhdəliklərinin maliyyə vəziyyəti haqqında hesabatda effektiv faiz üsulu əsasında təqdim edilmiş ümumi müqavilə üzrə qalıq ödənişlərini (faizlərin ödənişi də daxil olmaqla) əks etdirən ödəniş müddətlərinin təhlillərini əhatə edir.

1 yanvar 2018-ci il tarixinə maliyyə öhdəliklərinin ödəniş müddəti üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| | **1 aya qədər** | **1 aydan 3 ayadək** | **3 aydan 12 ayadək** | **1 ildən 5 ilədək** | **5 ildən artıq** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 2,445,687 | 1,588,187 | 12,025,703 | 15,471,521 | 6,443,633 | 37,974,731 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,522,358 | 559,415 | - | - | - | 4,081,773 |
| Digər maliyyə öhdəlikləri | 110,017 | - | - | - | - | 110,017 |
| **Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər** | **6,078,062** | **2,147,602** | **12,025,703** | **15,471,521** | **6,443,633** | **42,166,521** |

**Bazar riski**

Bazar riski xarici valyuta məzənnələri və faiz dərəcələri kimi bazar qiymətlərində dəyişikliklərin Cəmiyyətin gəlirinə və ya maliyyə alətləri üzrə ehtiyatların dəyərinə təsir göstərəcək riskdir. Bazar riski valyuta və faiz dərəcəsi risklərindən ibarətdir.

**Xarici valyuta riski**

Valyuta riski Cəmiyyətin xarici valyutada ifadə olunmuş aktiv və öhdəlikləri ilə bağlı xarici valyuta məzənnələrində mənfi dəyişikliklər nəticəsində yaranan zərər riskidir.

Cəmiyyət, müəyyən valyutalara qarşı risk siyasətini müəyyən edən və xarici valyuta riskinə məruz qalmanın müntəzəm şəkildə təhlilini göstərən valyuta riski üzrə mərkəzləşdirilmiş idarəetmə sistemindən istifadə edir. Bu təhlillərə açıq valyuta mövqeyinin qiymətləndirilməsi, valyuta məzənnələrinin proqnozlaşdırma modeli və proqnozlaşdırılan və büdcə dərəcələri arasında sapma təhlilləri daxildir. Cəmiyyət, müvafiq valyutada daxil olan vəsaitlər ilə xarici valyutada ödənilən vəsaitləri əvəzləşdirmək vasitəsilə neytral açıq valyuta mövqeyini saxlamaq siyasəti yürüdür.

Cəmiyyət, funksional valyutasından fərqli valyutada olan debitor borcları, kreditor borcları və borc alınmış vəsaitlər üzrə valyuta riskinə məruz qalır. Əməliyyatların aparıldığı valyutalar əsasən ABŞ dolları və Avrodur.

Cəmiyyətin xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| | AZN | ABŞ dolları | Avro | Digər | 1 yanvar 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 1,766,047 | 457,973 | - | - | 2,224,020 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,955,732 | 19,724 | 1,301 | 25 | 2,976,782 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **4,721,779** | **477,697** | **1,301** | **25** | **5,200,802** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 32,283,397 | 198,971 | - | - | 32,482,368 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 539,139 | 3,209,446 | 28,612 | 304,576 | 4,081,773 |
| Digər maliyyə öhdəlikləri | 110,017 | - | - | - | 110,017 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **32,932,553** | **3,408,417** | **28,612** | **304,576** | **36,674,158** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **(28,210,774)** | **(2,930,720)** | **(27,311)** | **(304,551)** | |

## 24. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən müvafiq bazar məlumatları (mövcud olduqda) və qiymətləndirmə metodologiyaları istifadə olunaraq müəyyənləşdirilmişdir. Buna baxmayaraq, mühakimə irəli sürmək təxmin edilən ədalətli dəyəri müəyyənləşdirmək üçün bazar məlumatlarını aydınlaşdırmaq üçün tələb olunur. Azərbaycan Respublikası inkişaf etməkdə olan bazara xas olan bəzi xüsusiyyətləri nümayiş etdirməkdədir və cari iqtisadi vəziyyət maliyyə bazarlarında fəaliyyət həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnə ola və ya satış dəyərini aşağı qiymətlərlə əks etdirə bilər və bu səbəbdən, maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Rəhbərlik, maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirən zaman bütün mövcud bazar məlumatlarından istifadə etmişdir.

İlkin maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyərdə və ya amortizasiya olunmuş dəyərdə tanınan maliyyə aktivləri və ya öhdəliklərinin ədalətli dəyəri aşağıda əks etdirilir:

| | 1 yanvar 2018-ci il | |
|---|---|---|
| | **Qalıq dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,976,782 | 2,976,782 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 2,224,020 | 2,224,020 |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | 32,482,368 | 32,482,368 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 4,081,773 | 4,081,773 |
| Digər maliyyə öhdəlikləri | 110,017 | 110,017 |

Aşağıdakı cədvəl ədalətli dəyərdə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirir və onları ədalətli dəyər iyerarxiyasında səviyyələr üzrə təhlil edir və burada ədalətli dəyər üzrə ölçülmələr təsnifləşdirilir.

| | Maliyyə aləti üzrə təsnifat | Qiymətləndirmə tarixi | Ədalətli dəyər ölçülməsindən istifadə etməklə: Fəal bazarlarda təyin edilmiş qiymətlər (Səviyyə 1) | Əhəmiyyətli dərəcədə müşahidə edilən xərclər (Səviyyə 2) | Əhəmiyyətli dərəcədə müşahidə edilməyən xərclər (Səviyyə 3) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş dəyər | 1 yanvar 2018-ci il | 2,976,782 | - | - | 2,976,782 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | Amortizasiya olunmuş dəyər | 1 yanvar 2018-ci il | - | - | 2,224,020 | 2,224,020 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya olunmuş dəyər | 1 yanvar 2018-ci il | - | - | 4,081,773 | 4,081,773 |
| Faiz xərci yaradan kreditlər və borc alınmış vəsaitlər | Amortizasiya olunmuş dəyər | 1 yanvar 2018-ci il | - | - | 32,482,368 | 32,482,368 |
| Digər maliyyə öhdəlikləri | Amortizasiya olunmuş dəyər | 1 yanvar 2018-ci il | - | - | 110,017 | 110,017 |

## 25. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

29 yanvar 2018-ci il tarixində Cəmiyyət 2,000,000 AZN məbləğində, nominal dəyəri 1,000 AZN olan 14% faiz dərəcəsi ilə ödəmə tarixi 23 yanvar 2019-cu il tarixinədək olan 2,000 korporativ borc qiymətli kağızlarını buraxmışdır.

19 aprel 2018-ci il tarixində Cəmiyyət 3,000,000 AZN məbləğində, nominal dəyəri 1,000 manat olan 12% faiz dərəcəsi ilə və ödəmə tarixi 19 aprel 2019-cu il tarixinədək olan əlavə 3,000 korporativ borc qiymətli kağızlarını buraxmışdır.

20 dekabr 2017-ci il tarixində Cəmiyyət AYİB ilə 9,450,000 ABŞ dolları məbləğində 9.98% faiz dərəcəsi ilə 7 il müddətinə kredit müqaviləsi imzalamışdır. 19 mart 2018-ci il tarixində Cəmiyyət bu kredit üzrə 7,100,000 ABŞ dolları məbləğində olan ilk tranş almışdır.

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

*(AZƏRBAYCAN MANATI İLƏ)*

| | 31.12.2017 |
|---|---|
| Məhsul satışından gəlir | 70,601,388 |
| Satılmış məhsulun maya dəyəri | (60,105,012) |
| **Ümumi mənfəət** | **10,496,376** |
| Satış və marketinq xərcləri | (1,329,628) |
| Ümumi və inzibati xərclər | (3,442,826) |
| **Əməliyyat gəliri** | **5,723,922** |
| Maliyyə xərcləri | (4,095,350) |
| Məzənnə fərqi üzrə gəlir (zərər) | 37,270 |
| Sair qeyri-əməliyyat gəliri və xərci | |
| **Mənfəət vergisinə qədər olan mənfəət** | **1,665,842** |
| Mənfəət vergisi xərci | (257,569) |
| **İl üzrə mənfəət** | **1,408,273** |

**Direktor: Aydın Kərimov**

**Maliyyə direktoru: Fuad Zülfüqarov**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti «MET-AK» Limited Liability Company Azerbaijan Republic

**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**
*(AZƏRBAYCAN MANATI İLƏ)*

| | 31.12.2017 |
|---|---|
| **AKTİVLƏR** | |
| **Cari Aktivlər** | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 2,976,782 |
| Debitor borcları | 2,224,020 |
| Malsatan və podratçılara verilmiş avanslar | 2,770,639 |
| Vergi hesabı üzrə artıq ödəmə | 1,326,600 |
| Mal-material Ehtiyyatları | 36,946,688 |
| Sair Cari Aktivlər | 625,474 |
| **Cəmi cari aktivlər** | **46,870,203** |
| **Uzunmüddətli aktivlər** | |
| Binalar, Qurğular və Avadanlıqlar | 18,999,265 |
| Qeyri maddi aktivlər | 330,662 |
| Digər uzunmüddətli aktivlər | 747,531 |
| **Cəmi uzunmüddətli aktivlər** | **20,077,458** |
| **CƏMİ AKTİVLƏR** | **66,947,661** |
| **KAPİTAL** | |
| Nizamnamə Kapitalı | 12,364,010 |
| Bölüşdürülməmiş Mənfəət | 14,721,588 |
| **CƏMİ SƏHMDAR KAPİTALI** | **27,085,598** |
| **ÖHDƏLİKLƏR** | |
| **Cari öhdəliklər** | |
| Malsatan və podratçılara kreditor borcları | 4,081,773 |
| Qısa müddətli kreditlər | 13,876,720 |
| Alınmış avanslar üzrə hesablaşmalar | 1,977,368 |
| Digər qısa müddətli öhdəliklər | 110,017 |
| **Cəmi cari öhdəliklər** | **20,045,878** |
| **Uzunmüddətli öhdəliklər** | |
| Təxirə Salınmış vergi öhdəlikləri | 1,210,537 |
| Uzun müddətli bank kreditləri və borclar | 18,605,648 |
| **Cəmi uzun müddətli öhdəliklər** | **19,816,185** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **39,862,063** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **66,947,661** |

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti «MET-AK» Limited Liability Company Azerbaijan Republic

**Direktor: Aydın Kərimov**

**Maliyyə direktoru: Fuad Zülfüqarov**

## “Met-Ak” Məhdud Məsuliyyətli Cəmiyyətin

## 2017-ci illik idarəetmə hesabatı

| | |
|---|---|
| *1. emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi;* | “Met-Ak” Məhdud Məsuliyyətli Cəmiyyət<br>“Met-Ak” MMC<br>Qeydiyyat tarixi: 10.01.1997-ci il<br>Qeydiyyat nömrəsi və VÖEN: 1500018681 |
| *2. emitentin hüquqi ünvanı və olduğu yer;* | Hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Böyük Şor (Daş Karxana), ev 15A, Dalan 2<br>Faktiki ünvan (oluğu yer): Bakı şəhəri, Nərimanov rayonu, Böyük Şor (Daş Karxana), ev 15A, Dalan 2 |
| *3. emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;* | Olmayıb |
| *4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;* | Olmayıb |
| *5. emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati- hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;* | Yoxdur |

| | |
|---|---|
| *6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;* | Deyil |
| *7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;* | Polad və plastik boru və fitinqlər, müxtəlif metallardan döymə məmulatlar, tikinti işkələləri və dirəkləri, plastik konteynerlər, o cümlədən, kənd təsərrüfatı və bağçılıqda istifadə edilən |

| | |
|---|---|
| | müxtəlif növdən olan məhsulların istehsalı ilə məşğuldur |
| *8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;* | Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin adxalına xüsusi icazə (müddətsiz)<br>Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinə lisenziya (müddətsiz) |
| *9. emitentin təklif etdiyi məhsullar və xidmətlər;* | Polad və plastik boru və fitinqlər, müxtəlif metallardan döymə məmulatlar, tikinti işkələləri və dirəkləri, plastik konteynerlər, o cümlədən, kənd təsərrüfatı və bağçılıqda istifadə edilən müxtəlif növdən olan məhsulların istehsalı ilə məşğuldur |
| *10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası;* | I rüb 30.03.2017 - 452 işçi<br>II rüb 30.06.2017 – 514 işçi<br>III rüb 30.09.2017 – 637 işçi<br>IV rüb 31.12.2017 – 633 işçi |
| *11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;* | Direktorlar şurası:<br>Fuad Zülfüqarov Zülfüqar oğlu<br>Aydın Kərimov Alik oğlu<br>Mübariz Əzizov Səlimxan oğlu |
| *12. emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;* | 1 (bir) fiziki şəxs |
| *13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;* | Yeganə payçı Kərimov Alik Kainbəy<br>Nizamnamə kapitalındakı payı - 100%. |
| *14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);* | Yoxdur |

| | |
|---|---|
| *15. emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:* | Keçirilməyib |
| *15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan);* | - |
| *15.2. ümumi yığıncaqda qəbul edilmiş qərarlar.* | - |
| *16. emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı- ayrılıqda göstərilir):* | |
| *16.1. investisiya qiymətli kağızın növü və forması;* | Faizli, təminatsız, sənədsiz, adlı |
| *16.2. investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;* | 1- AZ2001020273; 06 dekabr 2017 |
| *16.3. investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;* | 1- ci emissiya – 2000 (iki min) ədəd, nominal dəyəri 1000 AZN |
| *16.4. investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;* | 1- ci emissiya – 2000,000 AZN |
| *16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);* | ---- |
| *16.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;* | 1) Məcmu nominal dəyəri 2000,000 AZN-lik istiqraz emissiyası üzrə illik fazi dərəcəsi 14 % (rüblük olmaqla) |
| *16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda).* | Bakı Fond Birjası (Azərbaycan, Bakı, şəhəri) |
| *17. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:* | Belə əqd bağlanmayıb |
| *17.1. əqdin məbləği;* | - |
| *17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi* | - |
| *18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:* | Belə əqd bağlanmayıb |

| | |
|---|---|
| *18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;* | - |
| *18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.* | - |
| *19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;* | 01.08.2018 |
| *20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat* | "Met-Ak" MMC-nin təsisçi qərarı |

**"Met-Ak" MMC-nin direktoru**

**Aydın Kərimov** ____________

**"Met-Ak" MMC-nin maliyyə direktoru**

**Fuad Zülfüqarov** ____________